**Elçin Məmmədov**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**elchin197613@mail.ru**

## Azərbaycan Xalq Cümhuriyyətinin dil və təhsil siyasəti

**Açar sözlər:** cümhuriyyət, təhsil, milliləşdirmə, seminariya, ali ibtidai, dövlətçilik, milli kadrlar
**Keywords:** Republic, education, nationalization, Seminary, higher primary, statehood, national personnel.
**Ключевые слова:** республика, образование, национализация, семина-рия, высшее начальное, государственность, национальные кадры.

AXC-nin yaranması Azərbaycan xalqının milli dövlətçilik və özünüdərkinin inkişafı tarixində misilsiz bir hadısə idi(5, s.525).

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən xalqın maariflənməsi, milli kadrların yetişdirilməsi, millətin mədəni və intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində görülməli işləri özünün ən vacib məqsədlərindən biri elan etdi, maarif və mədəniyyətin inkişafini milli azadlığın, milli istiqlalın, müstəqil dövlətçiliyin təməl prinsiplərindən ən birincisi kimi irəli sürdü, milli dövlət quruculuğunda, iqtisadi və mədəni quruculuqda maarifin, təhsilin müstəsna rolunu ön plana çəkdi.

Hələ Tiflisdə yaranan ilk müvəqqəti milli hökumət kabinetinin tərkibindəki 9 nazirlik arasında Xalq Maarifi Nazirliyinin yer alması təhsilə münasibətin nəticəsi idi. Yeri gəlmişkən, birinci Azərbaycan hökuməti kabinetində "Maliyyə və Xalq Maarifi Nazirliyi" kimi fəaliyyətə başlayan bu nazirlik sonrakı 4 hökumət kabinetində "Xalq Maarifi və Dini Etiqat Nazirliyi" kimi adlandırılmışdır. Xalq Cümhuriyyətinin I, II və III hökumət kabinetlərində Nəsib bəy Yusifbəyli, IV hökumət kabinetində Rəşid Xan Kaplanov, V hökumət kabinetində isə Həmid bəy Şahtaxtinski xalq maarifi nazirləri olmuş, sonuncunun istefasından sonra qısa müddətdə Nurməhəmməd bəy Şahsuvarov xalq maarifi naziri vəzifəsini müvəqqəti olaraq icra etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra Fətəli Xan Xoyskinin rəhbərliyi ilə

yaranan II hökumət kabinetinin Azərbaycan Cümhuriyyətinin vətəndaşlarına ünvanlanan 17 iyun 1918-ci il tarixli müracətində yeni hökumətin qarşıdakı dövrdə həyata keçirəcəyi tədbirlər içərisində digər sahələrlə yanaşı, təhsil, maarif, məktəb sahəsində aparılacaq islahatların, ilk növbədə, təhsil müəssisələrinin milliləşdirilməsi, ölkədə təhsilin, maarifin tezliklə ana dilində aparılmasına keçiləcəyi, eyni zamanda bu proseslərin tədrici yolla, mərhələlərlə reallaşdırılacağı xüsusi olaraq vurğulanırdı. Əslində bu tarixi müraciət müstəqil Azərbaycan dövlətinin ilkin platforması, hökumətin təxirəsalınmaz tədbirlər proqramı idi(6, s. 11 ). 1918-ci ilin iyunun 30-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Xalq Maarifi və Dini Etiqad Nazirliyinin strukturu və ştat cədvəli təsdiq edilir. Həmin struktura nazir, onun yoldaşı (müavini), nazirliyin idarə, şöbə rəisləri və dəftərxana aparatının işçiləri daxil idi. Nazirliyin səlahiyyətinə xalq maarifi və dini etiqad məsələləri üzrə müvafiq normativ sənədlərin, hüquqi aktların layihələrini hazırlayıb hökumət kabinetinə təqdim etmək, təhsilin, elmin, mədəniyyətin inkişafına xidmət edən müvafiq təkliflər hazırlamaq, maarig sistemi üzrə maliyyə-smeta sənədləri tərtib etmək, Nazirlər Şurasında ölkədəki təhsil müəssisələrinin illik hesabatlarını müzakirə edib müəyyən qərarlar qəbul etmək, məktəb və maarif işinə nəzarəti və hökumətin təhsil sahəsindəki siyasətini həyata keçirmək və s. bu kimi məsələlər daxil idi. Hökumətin həmin qərarı ilə Xalq Maarifi Nazirliyinin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili (ümumtəhsil) və peşə təhsili sahələri üzrə üç müstəqil şöbə də yaradılmışdı(1, s. 56).

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif, təhsil, elm və mədəniyyət sahəsində apardığı siyasətin, reallaşdırmaq istədiyi təxirəsalınmaz tədbirlərin və həyata keçirilməsi nəzərdə tutulan islahatların əsas istiqamətləri, əsasən, aşağıdakılardan ibarət idi:

❖ *Azərbaycanda fəaliyyət göstərən maarif müəssisələrinin, təhsil ocaqlarının qısa müddətdə, istisnasiz olaraq milliləşdirilməsi;*

❖ *ölkədə tədrisin, əsasən, dövlət dilində - Azərbaycan türkcəsində aparılmasına nail olunması; təlimi müvəqqəti olaraq başqa dildə olan məktəblərdə dövlət dilinin məcburi və intensiv şəkildə tədrisinin təmin edilməsi;*

❖ *tezliklə hamiliqla ümumi icbari ibtidai təhsilə keçilməsi;*

❖ *təhsil sahəsində islahatlar aparmaq üçün xüsusi hökumət komissiyasının, o cümlədən, təhsilin məzmunu, proqram və dərsliklərin hazırlanması üzrə komissiyaların təsis edilməsi;*

❖ *milli məktəbin tərəqqisini təmin etmək məqsədilə milli müəllim*

*kadrların yetişdirilməsi üçün yeni darülmüəlliminlərin (kişi müəllim seminariyası) və darülmüəllimatların (qadın müəllim seminariyası) yaradılması; bununla yanaşı ilkin olaraq müəllim hazırlayan qısamüddətli pedaqoji kursların açılması; ilkin zəruri ehtiyacı ödəmək üçün Türkiyədən müəllimlərin dəvət olunması və dərsliklərin gətirilməsi;*

❖ *təhsil, maarif işçiləri üçün pedaqoji mətbuat orqanlarının, məktəblilər üçün uşaq ədəbiyyatı üzrə jurnalların təsis edilməsi və nəşrinin təşkil olunması;*

❖ *ölkənin idarə olunması və iqtisadi müstəqilliyinin təmin olunması üçün milli mütəxəsslərin hazırlanması; bu məqsədlə: ölkədə ali və orta ixtisas təhsili məktəbləri şəbəkəsinin qurulması və xarici olkəklərdəki tanınmış ali məktəblərdə azərbaycanlı gənclərin təhsil almalarına şərait yaradılması;*

❖ *ölkənin tarixini, mədəniyyətini, etnoqrafiyasını, ədəbiyyatını öyrənmək üçün elmi müəssisələrin, elmi cəmiyyətlərin, universitetlərin təsis olunması;*

❖ *sənət, texniki-peşə məktəbləri, ümumi təhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi; internat tipli məktəblərin, məktəbəqədər tərbiyə müəssisələrinin dövlət himayəsinə keçirilməsi;*

❖ *ölkənin hərbi potensialını formalaşdırmaq, müdafiə qüdrətini möhkəmləndirmək məqsədilə milli hərbi mütəxəssislər hazırlayan hərbi təhsil ocaqlarının geniş şəbəkəsinin yaradılması;*

❖ *ölkə büdcəsində təhsilə ayrılan xərclərin mərhələlərlə intensiv olaraq artırılması;*

❖ *ana dilində təhsilin, maarifin inkişafı, əhali arasında savadsızlığın aradan qaldırılması və Azərbaycanın Avropaya mədəni inteqrasiyası məqsədilə əlifba islahatının aparılması, latin əlifbasına keçilməsi ilə bağlı hökumət komissiyasının yaradılması, ilkin layihənin Parlamentdə müzakirəsi və digər müvafiq təşkilati məsələlərin həlli və s.*

M. Ə. Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qısa müddətdə maarif, təhsil, mədəniyyət sahəsində həyata keçirdiyi tarixi işlər haqqında yazırdı: "Təhsili-tərbiyə təşkilatına ayrı bir təzəlik verilmişdi. Məmləkəti irfanın nuruyla işıqlandırmaq üçün ciddiyyətlə işə başlanmışdı. Ümumi ögrənimin (təhsilin) həyata keçirilməsi əsas tutularaq, bunu təmin etmək üçün bir tərəfdən məktəblər açılır, digər tərəfdən yeni qurulmuş erkək (kişi) və qızlar darülmüəlliminləri (kişi və qadın müəllim seminariyaları) vasitəsi ilə öyrətmənlər hazırlanırdı. İbtidai məktəblərin çoxalmasına xidmət etmək üçün xüsusi şəkildə İstanbuldan öyrətmənlər gətirilmişdi. Bundan başqa, xüsusi olaraq hər bir qəza mərkəzində öyrətmənlər kursu açılmışdı. Maarif işində qadınların tərbiyəsi də kişilərlə bərabər tutulurdu. Mövcud rus

gimnaziya və liseylərindən biri tamamilə milliləşdirilmiş, bir çox qız ibtidai məktəbləri açılmış, hamısı da qızlarla dolmuşdu.

Məktəb yaşından böyük vətəndaşlar da unudulmamışdı. Bunlar üçün gecə kursları açılmışdı. Bu xüsusda qadınlar da unudulmayaraq, onlara fərdi gündüz kursları açılmış və cəmiyyətlə ilgili dərslər tərtib edilmişdi.

Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün Bakı Universiteti açılmışdı. Bundan başqa yüzə yaxın tələbə müxtəlif texniki sahələrdə təhsil almaq üçün dövlət məsrəfi ilə Avropanın universitetlərinə və digər yüksək məktəblərə göndərilmiş, bir o qədər də tələbənin İstanbula yollanması qərara alınmışdı ...”(7, s. 43).

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsilin, maarifin və mədəniyyətin inkişafına xüsusi önəm verməsinin əsas göstəricilərindən biri də budur ki, həmin dövrdə dövlət budcəsində təhsilə ayrılan vəsait başqa sahələrlə müqayisədə üstünlük təşkil edirdi. Müqayisə üçün deyək ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il dövlət budcəsində (665 milyon manat) təhsilə ayrılan vəsait (75 milyon manat) az qala milli orduya ayrılan vəsaitə (80 milyon manat) bərabər olmuşdu (13, s. 181).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhsilin, xalq maarifinin inkişaf yollarını izləmək, bu dövrdə milli hökumətin maarif sistemində apardığı islahatlar, həyata keçirdiyi tədbirlər barədə ayrılıqda geniş şəkildə bəhs etmək istəyirik.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə formalaşan ikinci kabinetinin Azərbaycan xalqına ünvanlanmış 17 iyun 1918-ci il tarixli müraciətində deyilirdi ki, hökumətin yaxın dövrdə həyata keçirəcəyi tədbirlərdən biri də təhsil müəssisələrinin milliləşdirilməsi, anadilli məktəblər şəbəkəsinin genişləndirilməsi olacaqdır. Yeni yaradılan Xalq Maarifi və Dini Etiqadlar Nazirliyinin strukturu təsdiq edildikdən sonra ölkədə fəaliyyət göstərən bütün maarif ocaqları, məktəblər onun tabeçiliyinə verilir. Az keçmir ki, hökumətin qərarı ilə həmin Nazirliyin tabeçiliyində 10 bölgədə yeni xalq məktəbləri müfəttişliyi yaradılır və regionlardakı təhsil müəssisələrinin fəaliyyətinə nəzarət onlara tapşırılır (2, s. 220).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz fəaliyyətinin Gəncə dövründə təhsil müəssisələrinin, dövlət orqanlarının milliləşdirilməsi sahəsində qarşıya qoyulan vəzifələrin, müvafiq hökumət tədbirlərinin həyata keçirilməsinin hüquqi bazasını yaratmaq məqsədilə “Türk (Azərbaycan) dilinin dövlət dili elan edilməsi haqqında” 27 iyun 1918-ci il tarixli qərar qəbul etdi. Həmin qərarla Azərbaycan türkcəsi Azərbaycan Xalq Cümhuriyyətinin dövlət dili elan edilir, bütün dövlət orqanları,

məhkəmə, təhsil müəssisələri və digər inzibati qurumlarda bu dildən istifadə olunması tələb olunur.**Lakin ölkədə idarəetmə orqanlarında dövlət dilində danışmağı və yazmağı bilən milli kadrlar çatışmadığı üçün hökumət həmin qərarla müstəsna hal kimi, milli mütəxəssislər yetişdiriləndək rəsmi yazışmalarda rus dilindən də istifadəyə icazə verir.** Bütövlükdə, bu qərar məktəb, maarif sahəsində milliləşmə prosesinin başlanğıcı oldu. Nəzərə almaq lazımdır ki, istər Azərbaycan türkcəsinin dövlət dili elan olunması, istərsə də təhsil sisteminin, məktəb və maarif ocaqlarının milliləşdirilməsi ideyası hökumətin ən ağır zamanında, ölkənin paytaxtı – Bakı uğrunda ölüm-dirim savaşının getdiyi bir zamanda reallaşdırılmağa başlanmışdı. Bu özlüyündə Xalq Cümhuriyyəti hökumətinin təhsilə nə qədər önəm verdiyini bir daha göstərir. Reallıq bu idi ki, təhsil sisteminin milliləşdirilməsi, təhsilin ana dilində aparılması uğrunda yarım əsrlik milli mücadilənin o zamankı təmsilçilərinin – hökumətə rəhbərlik edən maarifçi ziyalıların əlinə tarixi bir fürsət düşmüşdü. Onlar bu tarxi fürsətdən yararlanmağı özlərinin və müstəqil dövlətin ən alı vəzifələrindən biri sayırdılar. Bu mənada amerikalı tarixçi Tadeuş Svyatoçovski yazırdı: “Ziyalıların ölkəni idarə etməsi ilə çoxdan arzulanan milli təhsil reallaşırdı. Türk dili bütün məktəblərdə siniflərin hamısını əhatə etməklə tədris edilməyə başladı və türk xalqlarının tarixi Rusiya tarixi fənnini əvəz etdi. Bir çox ibtidai məktəblərdə rus dili tədris dili kimi ləğv olundu. Lakin kadr çatışmazlığı orta təhsildə türkcələşdirmənin inkişafını ləngitdi”(8, s. 109).

Amma proses ağrılı getsə də, sonrakı sürətli dəyişmə üçün hüquqi zəmin yarandı.

Beləliklə, milli hökumət təhsildə milliləşdirmə sahəsində işlərə Fətəli Xan Xoyskinin imzaladığı “İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında” 28 avqust 1918-ci il tarixli qərarı ilə başladı. Həmin qərarla müəyyən edilirdi ki, bütün ibtidai tədris müəssisələrində təlim yalnız ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan türkcəsinin məktəblərdə tədrisi məcburi surətdə və intensiv qaydada aparılmalıdır. Həmçinin bu qərarla ali ibtidai və ümumi orta təhsil müəssisələrində də tədrisin dövlət dilində - Azərbaycan türkcəsində aparılması tələb olunurdu. Ali ibtidai məktəblərdə milliləşdirilmiş siniflərdə dövlət dilini bilməyən şagirdlər üçün türk (Azərbaycan) dilli siniflərin yaradılması, həmin siniflərdə dövlət dilinin 1918//1919-cu tədris ilinin sonunadək intensiv tədris yolu ilə2 il ərzində yalnız dövlət dilində aparılmasına keçilməsi tələbi qoyulurdu. Ümumtəhsil məktəblərinin 5-ci sinfindən yuxarı siniflərində təhsil alan şagirdlərə rus dilində

təhsillərini davam etdirməyə o halda icazə verilirdi ki, dövlət dili olan Azərbaycan türkcəsinin orta məktəblərin bütün siniflərində məcburi fənn kimi intensiv olaraq öyrənilməsi təmin edilmiş olsun. Həmin qərarla müəyyən edilirdi ki, bütün siniflərdə Azərbaycan türkcəsinin tədrisi üçün həftəlik dərs yükü 4 saatdan az olmamalıdır. Eyni zamanda, bu qərarla Azərbaycanda təlim rus və erməni dillərində aparılan məktəblər və siniflər ləğv edilirdi (2, s. 225).

Azərbaycan hökuməti təhsil müəssisələrinin milliləşdirilməsi ilə yanaşı, ölkədə yaşayan və azlıqda qalan xalqların dil və mədəniyyətinin qorunub saxlanması və inkişaf etdirilməsini təmin etmək məqsədilə 1918-ci il sentyabrın 7-də xüsusi qərar qəbul etdi. Həmin qərarla müəyyən edilirdi ki, əgər sinifdə 10 nəfərdən çox azlıqda olan xalqın nümayəndəsi oxuyursa, onda onlara öz dillərində ana dili və ilahiyyatdan dərs keçilməlidir. Həmin fənlərə həftəlik dərs yükünün miqdarı Xalq Maarifi Nazirliyi tərəfindən müəyyənləşdirilir, həmin fənlərin tədris xərcləri dövlət tərəfindən ödənilirdi (2, s. 228). Bu fakt Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hələ o dövrdə demokratik dəyərlərə necə hörmətlə yanaşdığını göstərir.

Heç şübhəsiz, bütün bu hüquqi bazanın yaradılmasından və hazırlıq işlərindən sonra 1918//1919-cu dərs ilinin başlanması, təhsil müəssisələrinin milliləşdirilməsi, ibtidai, ali ibtidai və ümumi orta təhsil ocaqlarında tədrisin dövlət dilində aparılmasına keçid prosesi problemlərsiz, ağrısız ötüşmür. Tezliklə məlum oldu ki, məktəblərin milliləşdirilməsi ilə əlaqədar çoxlu sayda uşaq təhsildən kənarda qalıb. Bu reallığı görən Azərbaycan hökuməti 28 avqust 1918-ci il tarixli qərarında müəyyən dəyişiklik etmək məcburiyyətində qalır. Beləliklə, 1918-ci il noyabrın 13-də Azərbaycan hökuməti yuxarıda adı çəkilmiş qərara aşağıdakı dəyişikliklər edir: yeni qərarla müəyyən edilirdi ki, bir orta təhsil müəssisəsi olan şəhərlərdə yuxarı hazırlıq siniflərindən başlayaraq, Xalq Maarifi Nazirliyinin xüsusi razılığı ilə paralel olaraq rus bölmələri də açmağa icazə verilir. Bununla yanaşı, yaşayış məntəqələrində bir neçə eyni tipli ümumi təhsil müəssisələrindən bir hissəsi milliləşdirilir, qalan hissəsində tədris bütün siniflərdə rus dilində aparılır. Eyni zamanda, həmin qərarla təlim rus dilində aparılan məktəblərdə dövlət dili – Azərbaycan türkcəsi məcburi fənn kimi tədris olunmalı idi. Azərbaycan hökumətinin bu qəarında azərbaycanlı uşaqların yalnız milliləşdirilmiş məktəblərdə təhsil almaları bir vəzifə kimi tələb edilirdi. Lakin müstəsna hallarda ana dilində danışmağı bilməyən azərbaycanlı uşaqlar Xalq Maarif Nazirliyinin xüsusi icazəsi ilə rus dilində təhsil ala bilərdilər. Beləliklə,

aparılan siyasət və həyata keçirilən tədbirlər nəticəsində 1919-cu ilin məlumatına görə, Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olmaqla, bütün orta məktəblər milliləşdirilmişdi (6, s. 33). 1919//1920-ci dərs ilinin əvvəllərində Azərbaycanda 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi ki, ibtidai məktəblərdə 48070, orta məktəblərdə isə 9611 şagird təhsil alırdı (6, s. 33).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ümumi təhsil müəssisələrini milliləşdirməklə yanaşı, onların şəbəkəsini ildən-ilə genişləndirməyi də planlaşdırırdı. Belə ki, Xalq Maarifi Nazirliyinin 1919-cu ilin oktyabrında təhsil müəssisələrinin açılmasına dair hökumətə ünvanladığı rəsmi təqdimatında məlum olur ki, hər il, təxminən, 35 yeni ümumi orta məktəb açılması nəzərdə tutulurdu. Məlumatda o da bildirilirdi ki, ölkənin ümumi təhsil müəssisələrinin məktəb şəbəkəsi hazırlanmadığından ildə neçə məktəbin açılması məsələsini hələlik tam müəyyənləşdirmək mümkün deyil.

Azərbaycan hökumətinin ümumi təhsil sahəsində həyata keçirdiyi tədbirlərdən biri də Birinci Dünya Müharibəsi nəticəsində fəaliyyəti dayandırılmış ümumtəhsil məktəb şəbəkəsinin bərpa olunması, dövlət vəsaiti hesabına onların maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının bərpası, təmiri və tikintisi üçün büdcədən vəsaitin ayrılması sayıla bilər. Hökumətin apardığı məqsədyönlü siyasət nəticəsində bir sıra bölgələrdə çoxlu sayda məktəb bərpa olunmuş, fəaliyyətə başlamışdı. Bunu demək kifayət edər ki, təkcə Şamaxı və Göyçay qəzalarında xalq məktəbləri müfəttişliyində uçotda olan 108 məktəbdən 1918-ci ildə ancaq 10-u fəaliyyət göstərirdisə, 1919//1920-ci dərs ilində belə məktəblərin sayı 70-ə çatdırılmışdı (6, s. 34).

Bununla yanaşı, 1919-cu ilin iyulundan Lənkəran kişi və qadın gimnaziyaları da Xalq Maarifi Nazirliyinin sərəncamına keçir. Həmin ilin avqustun 11-də Xalq Maarifi Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı müqəddəs Nina qız məktəblərinin adı dəyişdirilir. Bakıda I Azərbaycan qəz gimnaziyası, Gəncə və Nuxada kişi və qadın, Şuşada kişi məktəb və seminariyaları açmaq barədə Azərbaycan Parlamentinə qərar layihələri təqdim olundu. Onlardan yalnız Göyçayda realnı məktəbi açmaq haqqında qanun layihəsi Parlament tərəfindən 1919-cu ildə təsdiq edilmişdir (1, s. 58).

Azərbaycan hökuməti ümumi təhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi sahəsində həyata keçirəcəyi tədbirləri mövcud olduğu son ana qədər dayandırmadı. Belə ki, hökumət böhranının yaşanmasına baxmayaraq, Azərbaycan Parlamenti 1920-ci il aprelin 12-də Quba uezdinin

Qusar sahəsinin Xuluq kəndində, Şuşa uezdinin Ağdam kəndində ali ibtidai məktəblərin açılması haqqında qanunlar qəbul edir.

Məktəb islahatı sahəsində məsələləri ətraflı müzakirə etmək, müəyyən təkliflər hazırlayıb hökumətə təqdim etmək məqsədilə Azərbaycan hökumətinin qərarı ilə 1919-cu il avqust ayının 20-dən sentyabrın 1-dək Bakıda Azərbaycan müəllimlərinin qurultayı çağrılır. Qurultayın keçirilməsi xərcləri üçün Azərbaycan hökumətinin 2 avqust 1919-cu il tarixli qərarı ilə Xalq Maarifi Nazirliyinin sərəncamına 35600 manat məbləğində vəsait də ayrılır.

Azərbaycan müəllimlərinin 1906 və 1907-ci illərdə keçirilən birinci və ikinci qurultaylarından sonra sayca üçüncüsü olan həmin qurultay 1919-cu il avqust ayının 20-də saat 11-də Bakı I realnı məktəbin (Azərbaycan Dövlət İqtisad Universitetinin binası) akt zalında öz işinə başlayır və nəzərdə tutulan müddətdə işini başa çatdırır. Qurultayda Azərbaycanın bütün bölgələrini və tədris müəssisələrini təmsil edən nümayəndələr iştirak edirdi. Qurultayı Azərbaycan Türk Müəllimləri İttifaqının sədri Ağabəy İsrafilbəyov açmış, qurultayda Xalq Maarifi Nazirliyi adından nazir müavini Həmid bəy Şaxtaxtinski böyük nitq söyləmişdir.

Qurultayın Xalq Maarifi Nazirliyinə təqdim etdiyi təkliflər əsasında bütövlükdə məktəb islahatı və xüsusi olaraq təhsilin məzmunca milliləşdirilməsini əsas tutan proqram hazırlamaq məqsədilə hökumət komissiyası yaradılır. 1919-cu il noyabrın 7-də Xalq Maarifi Nazirliyi yanında hökumət islahat komissiyasına Xalq Maarifi nazirinin müavini Həmid bəy Şaxtaxtinski (sədr), Nurməhəmməd bəy Şahsuvarov, Azad bəy Əmirov, Fətulla bəy Rzabəyov, Soltan Məcid Qənizadə, Abdulla bəy Əfəndiyev, Sara xanım Yaqubova, Sara xanım Xuramoviç, Əhməd bəy Pepinov, Xədicə xanım Ağayeva, Məmmədağa Şahtaxtinski, Cabbar bəy Orucəliyev və Saleh bəy Vəkilov daxil idilər. Hökumət bu komissiya qarşısında növbəti dərs ilinin əvvəlinə kimi məktəb islahatı, o cümlədən təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə hökumət proqramını hazırlamaq missiyası qoymuşdu (6, s. 38). Bu komissiyanın təşəbbüssü və rəhbərliyi ilə 1919-cu ilin dekabrında Bakıda keçirilmiş müəllim seminariyaları xalq maarifi inspektorları, ali ibtidai və orta məktəb müdirlərinin 15 günlük müşavirəsində ümumitəhsil müəssisələrində istifadə olunan dərsliklər məsələsini geniş müzakirə edərək müəyyən təkliflər hazırlandı. Bununla yanaşı müxtəlif fənlər üzrə, o cümlədən Mahmud bəy Mahmudbəyovun sədrliyi ilə ana dili və ədəbiyyat üzrə, Pənah Qasımovun sədrliyi ilə tarix fənni üzrə, Səməd bəy Acalovun

sədrliyi ilə riyaziyyat fənni üzrə, Cəmo bəy Cəbrayılbəylinin sədrliyi ilə təbiət fənni üzrə komissiyalar yaradıldı (9, s. 49-100). Azərbaycan hökuməti dərslik islahatı sahəsindəki işləri stimullaşdırmaq məqsədilə ana dilndə dərslik hazırlayan komissiyalara dövlət büdcəsindən ayrəca vəsait ayrılması barədə qərar da qəbul etmişdi. Bu komissiyalar AXC qurulana qədər ibtidai məktəblərdə istifadə olunan dərslikləri ətraflı müzakirə edərək onlardan tədrisə yararlı olanlarının müəyyən edilməsi işini də həyata keçirməli idi.

Azərbaycan hökuməti məktəbləri əlavə oxu ədəbiyyatı və sinifdənxaric oxu  materialları ilə təmin etmək məqsədilə Xalq Maarifi Nazirliyinin təklifi əsasında 200 səhifəlik dövri ədəbi jurnalın, həmçinin müəllim və məktəblilər üçün 4 elmi-pedaqoji jurnalın –( a) Pedaqoji; b) Kiçik yaşlı məktəblilər üçün oxu; c) Orta yaşlı məktəblilər üçün oxu; ç) Yaşlılar üçün oxu) nəşr olunması barədə Parlamentə qərar layihəsi təqdim olunmuş, ilkin razılıq alınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin həyata keçirdiyi milliləşdirmə siyasətini yerli müəllim kadrlarının çatışmazlığı xeyli ləngidirdi. Ona görə də hökumətin təhsil siyasətində müəllim hazırlığı məsələsi ilk gündən aparıcı yerlərdən birini tuturdu. Bu problemin tezliklə həlli üçün hökumət bir neçə istiqamətdə iş aparmalı olmuşdu: yeni müəllim seminariyaları yaratmaq, müəllimlər üçün hazırlıq kursları təşkil etmək, Türkiyədən müəllimlər dəvət etmək. Azərbaycan hökuməti milli təhsil quruculuğu sahəsində əsaslı dəyişikliklər etmək, maarif sistemini kökündən yeniləşdirmək üçün müəllim hazırlığına, ümumən pedaqoji kadrların hazırlanmasına birinci dərəcəli əhəmiyyət verirdi. Ölkədə pedaqoji kadrlara ehtiyacın qısmən ödənilməsi üçün hökumət proqramında hər il Azərbaycanın müxtəlif bölgələrində 4 müəllimlər seminariyasının açılması nəzərdə tutulurdu. İlkin olaraq 1918-ci ilin sentyabrında Qazaxda Müəllimlər Seminariyası, 1919-cu ilin sentyabrında isə Bakıda Kişi Müəllimlər Seminariyası açıldı. Eyni zamanda, hələ 1914-cü ildən fəaliyyət göstərən Gəncə Müəllimlər Seminariyası milli əsaslarla yenidən quruldu. Bütövlükdə, 1919-cu ilin əvvəlində Azərbaycanda 3 Müəllimlər Seminariyası (Qazax, Gəncə, Bakı) fəaliyyət göstərirdi.

Azərbaycan hökuməti müəllimlərə olan ehtiyacı nəzərə alaraq müəllim hazırlamaq məqsədilə qısamüddətli müəllimlər kursunun təsis edilməsi haqqında qərar (24.08.1918) qəbul etdi. Sonralar Azərbaycanın müxtəlif şəhərlərində belə iki aylıq kurslar açılmışdı. Bu kursların hər birində 50 nəfər müəllim hazırlanması nəzərdə tutulurdu.Eyni zamanda,

Bakıda müəllim hazırlayan pedaqoji ali məktəbin açılması da planlaşdırılmışdı.

AXC hökumətinin təhsil sahəsində uğurlu tədbirlərindən biri də təhsil tariximizdə ilk dəfə olaraq dövlət səviyyəsində məktəbəqədər tərbiyə müəssisələrinin yaradılması oldu. Belə ki, Parlamentin 01 mart 1919-cu il tarixli qərarı ilə Bakıda Azərbaycan Birinci qadın gimnaziyası nəzdində 01 sentyabr 1919-cu ildən uşaq bağçası açılmışdı. Bağçanın saxlanması üçün dövlət büdcəsindən 30933 manat vəsait ayrılmışdır. Bu onu göstərir ki, AXC hökuməti təhsildə fasiləsizlik prinsipini təmin etmək istəyirdi.

AXC hökuməti bu dövrdə təhsildən yayınmış uşaqların taleyinə də biganə qalmamış, 1919-cu ilin avqustunda Bakıda həmin uşaqlar üçün dövlət hesabına uşaq evi (koloniyası) açmış, bu cür uşaqların toplanıb koloniyaya göndərilməsi üçün Bakıda "Uşaqlara yardım bürosu" da təşkil etmişdi.

AXC-nin bütün hökumət kabinetlərinin proqramlarında peşə-ixtisas təhsili müəssisələri şəbəkəsinin yaradılması, yaxud mövcud olanların inkişaf etdirilməsi də nəzərdə tutulmuş, bu sahədə konkret addımlar atılmışdır.

AXC hökumətinin təhsil quruculuğu və təhsil siyasətində ölkənin idarə olunmasını təmin edəcək ali təhsilli mütəxəssislərin hazırlanması ən aparıcı istiqamətlərdən, ən çox əhəmiyyət verdiyi sahələrdən biri idi. Bu mənada Azərbaycan hökuməti mövcudluğu dövründə bir neçə ali məktəbin – Bakı Dövlət Unuversiteti, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji İnstitutu və Dövlət Konservatoriyasının açılması üzrə müəyyən hazırliq işləri görmüş, hətta onlardan bəzilərinin təsis olunmasına dair qanun layihəsi də Parlamentə təqdim olunmuşdu. Onlardan yalnız birini - Bakı Dövlət Universitetinin açılmasını reallaşdırmaq mümkün oldu. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də **"Bakı Dövlət Universitetinin təsisi haqqında"** qanun qəbul etdi. 1919-cu il noyabrın 15-də Bakı Dövlət Universitetinin auditoriyalarında ilk mühazirələr oxundu. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarı əsasında XMN-nin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrin ali məktəblərində təhsil almağa göndərildi. Onların xərcləri üçün büdcədən 7 milyon rubl vəsait ayrılmışdı. Xaricə təhsil almağa göndərilən tələbələr üçün belə bir qayda qoyulmuşdu ki, təhsili bitirdikdən sonra 4 il hökumətin göndərdiyi yerdə işləməli idilər. Həmin tələbələr oxumaq üçün İngiltərəyə, Fransaya, Türkiyəyə, İtaliyaya göndərilmişdi. Onlar elmin 17 istiqaməti üzrə təhsil alib vətənə dönməli

idilər. AXC devrildikdən sonra bir müddət onların təhsil xərcləri ödənilsə də, sonradan kəsilmişdi. Onların sonrakı taleyi barədə son dövrlərdə aparılmış tədqiqatlardan məlumatlar almaq mümkündür (12).

AXC hökumətinin təhsil siyasətində ölkənin yaşlı vətəndaşları arasında geniş yayılmış savadsızlığın qismən aradan qaldırılması məsələsi də yaddan çıxmamışdı.

AXC hökuməti milli hərbi kadrların hazırlanması sahəsində də səylərini əsirgəmədi. Bunun üçün milli hərbi məktəblər açılmasına təşəbbüs edildi. Gəncədə Milli Hərbiyyə (podproporşiklər) məkrəbi açıldı. Daha sonrakı həmin məktəb Gəncə proporşiklər məktəbinə çevrildi. 1919-cu ildə həmin məktəb Bakıya köçürüldü. 1918-1920-ci illər ərzində Azərbaycanda daha 3 hərbi məktəb açıldı: İstehkam məktəbi, Hərbi Dəmiryolçular məktəbi, Şuşa feldşer məktəbi ( 10, s. 101).

Beləliklə, AXC fəaliyyət göstərdiyi 23 ay ərzində təhsil sahəsində həyata keçirdiyi tədbirləri belə ümumiləşdirmək olar:

***Təhsil milliləşdirildi, Azərbaycan türkcəsi dövlət dili elan olundu;***

***Məktəblərin şəbəkəsi genişləndirildi;***

***Təhsil pillələri ibtidai, ali ibtidai, orta və ali təhsili əhatə edirdi;***

***Məktəbəqədər təhsilin inkişafina təşəbbüs edildi;***

***Ali təhsil müəssisəsi – BDU yaradıldı;***

***100 tələbə xaricə göndərildi;***

***Müəllim kadrlarının hazırlığı sahəsində xeyli işlər görüldü: Müəllim Seminariyalarının yaradılması;***

***İlk hərbi məktəblərin açılması və s.***

## Ədəbiyyat

1. Ataxan Paşayev Açılmamış səhifələrin izi ilə, B., 2001, s.56
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (stenoqrafik hesabatlar), I cild, B., 1998, s. 120-127
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, B., 2004
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild, B., 2005
5. Azərbaycantarixi, V cild, B., 2008
6. Mərdanov M., Quliyev Ə. AzərbaycantəhsiliXalq Cümhuriyyətiil-lərində (1918-1920), B., 2003
7. Rəsulzadə M. Ə. ÇağdaşAzərbaycantarixi. Əsrimizin Səyavuşu, Azərbaycanədəbiyyatı, B., 1991

8. Svyatoçovski T. RusiyavəAzərbaycan, B., 2000
9. Seyidov F. Azərbaycanpedaqojifikirtarixindənseçmələr, B., 2002.
10. Süleymanov M. Azərbaycanda ilk MilliHərbiyyəməktəbi (1918), B., 2000
11. Tağıyev Ə. S. Azərbaycandaməktəbtarixi, B., 1993
12. TeyyubQurbanYüztələbə, yüz tale, B., 2018
13. AzərbaycanDemokratikRespublikası, B., 1992

**ElchinMamedov**

**Democratic Republic**
**Abstract**

This paper discusses the reforms carried out in the field of education of the Azerbaijan Democratic Republic and the sphere of their use. There are also discussed such problems as nationalization, sending students to study abroad, the opening of military schools, education in the state (Azerbaijani) language, which were developed by the Azerbaijani Democratic Republic.

**Эльчин Мамедов**

**Образовательная политика Азербайджанской Демократической Республики**
**Резюме**

В настоящей статье рассматриваются реформы, проведенные в области образования Азербайджанской Демократической Республикии сферы их использования. Здесь также обсуждаются такие проблемы как национализация, отправление студентов для обучения за границу, открытие военных школ, проведения образования на государственном (азербайджанском) языке, которые были разработаны Азербайджанской Демократической Республикой.